**Azərbaycan Dövlət İqtisad Universitetinin**

**rektoru cənab Ədalət Muradova**

**Hörmətli Ədalət müəllim!**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ölkədə bütün sahələrdə dayanıqlı inkişaf təmin olunur. Ölkə Prezidentinin həyata keçirdiyi siyasi kurs bu dayanıqlı inkişafın təminatçısına çevrilmişdir.

Bu gün Azərbaycanda bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də ciddi islahatlar həyata keçirilir, təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atılır. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində bu gün Azərbaycan universitetləri təhsilin səviyyəsinin yüksəldilməsi, yeni təhsil standartlarının hazırlanması, bu sahədə beynəlxalq standartların tətbiqi, rəqabətədavamlı təhsil sisteminin qurulması istiqamətində ciddi uğurlar əldə etməkdədir. Bu ali təhsil müəssisələri sırasında Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) özünəməxsus yeri vardır.

2020-ci il iyunun 19-da Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) yaradılmasının 90 ili tamam olur. Respublikamızda ali iqtisadi təhsil və elm ocağı kimi tanınan, zəngin tarixi olan UNEC yarandığı vaxtdan indiyədək yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanmasında müstəsna rol oynayıb. Ölkə rəhbərliyinin təhsil və elmə diqqəti və qayğısı nəticəsində hazırda Universitetin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, tədris korpusları müasir tələblər səviyyəsində qurulub. Tədris prosesi və kadr hazırlığını Amerika və Avropa təhsil sisteminə uyğun quran UNEC bu gün regionda iqtisad elmini dərindən öyrədən fundamental tədris mərkəzinə çevrilib. Əminik ki, gələcəkdə də UNEC kollektivi ölkəmizdə sənaye, ticarət, maliyyə, statistika, vergi sistemi, marketinq, menecment və digər ixtisaslar üzrə kadr hazırlığı işinə mühüm töhfə verməklə daha böyük uğurlara imza atacaq.

Sizi Kənd Təsərrüfatı Nazirliyinin kollektivi adından bir daha təbrik edir və işlərinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**Kənd Təsərrüfatı Naziriliyi**